№ 259 ISSN 1027-3875 15 dekabr 2008

KHAZAR VIEW

# XƏZƏR XƏBƏR



ELMİ-KÜTLƏVİ, BƏDİİ-PUBLİSİSTİK TOPLU

www.khazar.org

# MƏZUNLARIMIZ ARASINDA ƏCNƏBİLƏRİN YERİ



Xəzər Universitəsində təhsilin, əsasən, ingilis dilində aparılması sınanmış dünya təhsil təcrübəsindən və təhsil ənənələrindən, dərslik və elmi nəşrlərdən səmərəli istifadə etməyə şərait yaradır, tələbə-müəllim mübadilə proqramlarının uğurla həyata keçirilməsinə yol açır, tələbələrimizin təhsillərini dünyanın tanınmış universitələrində davam etdirməsinə, eləcə də xarici ölkələrdə çalışmalarına geniş imkan yaradır.

Bütün bunlarla yanaşı, təhsilin ingilis dilində olması xarici ölkə vətəndaşlarının ölkəmizdə təhsil almaq imkanlarını və istəklərini təbii olaraq artırır. Universitəmizin fəaliyyətdə olduğu müddətdə dünyanın bir çox ölkələrindən gəlmiş əcnəbi tələbələr burada təhsil almışlar. Onların içində ABŞ, Qərbi Avropa ölkələri, Rusiya və başqa keçmiş sovet ölkələri, Türkiyə, İran, İraq, Hindistan, Pakistan, Çin, Şimali Koreya, Nigeriya, Anqola, Banqladeş və.s. kimi ölkələrdən gələn tələbələr var. Bu gün «Xəzər»də təhsil alan tələbələrin 9%-i əcnəbi tələbələrdir (bax: qeyd 6).

Fəaliyyətdə olduğu müddətdə Universitəmizə qəbul olunan əcnəbi vətəndaşların heç də hamısı təhsillərini başa vurmamışlar. Onların bir hissəsi müxtəlif səbəblərdən (ailə problemləri, adaptasiya ilə bağlı problemlər, təhsil aldıqları ixtisasların bağlanması, başqa ali məktəblərə və başqa ölkələrə azsaylı köçürülmələr, təhsildə şəxsi uğursuzluqlar və s.) təhsillərini yarımçıq qoymalı olmuşlar. Bü günə qədər Universitəmizdə 52 nəfər əcnəbi tələbə məzun olmuşdur (ümumilikdə məzunların 3,9%-i). İndi onlar haqqında statistik məlumatlar cədvəlini nəzərinizə çatdırırıq.

Universitəmizdə təhsil alan əcnəbi tələbələrin təhsil məsələləri ilə bağlı problemləri, əsasən, uyğun fakültə dekanlıqlarında həll olunsa da, əcnəbi tələbələrlə iş prosesində «Əcnəbi alimlər və tələbələr şöbəsi»nin fəaliyyəti xüsusi qeyd edilməlidir. Gündəlik həyatlarının ən xırda məişət məsələləri də daxil olmaqla, demək olar ki, bütün problemlərinin həllində bu mərkəz əcnəbi tələbələrə doğmalıq göstərir, onlara yüksək səviyyədə xidmət etməyə çalışır. Bu məsələlərdə Universitəmizin bütün əməkdaşlarının adı çəkilən şöbəyə yardımçı olmaları arzuolunandır.



# ƏCNƏBİ MƏZUNLAR HAQQINDA STATİSTİK MƏLUMATLAR

| Fakültələr | Bakalavr cəmi | | Bakalavr fəxri | | Bakalavr adi | | Magistr cəmi | | Magistr fəxri | | Magistr adi | | Doktor Ph.D | | Cəmi Birlikdə | | Cəmi fəxri | | Cəmi adi | |
|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|---|
| Memarlıq, mühəndislik və tətbiqi elmlər | 11 | 10 / 1 | 2 | 1 / 1 | 9 | 9 / | 10 | 9 / 1 | 3 | 2 / 1 | 7 | 7 / | 2 | 1 / 1 | 23 | 20 / 3 | 5 | 3 / 2 | 18 | 17 / 1 |
| İqtisadiyyat və menecment | | | | | | | 2 | 2 / | | | 2 | 2 / | | | 2. | 2 / | | | 2 | 2 / |
| Humanitar və sosial elmlər | 1 | / 1 | . | | 1 | / 1 | 3 | 1 / 2 | 1 | / 1 | 2 | 1 / 1 | 1 | 1 / | 5 | 2 / 3 | 1 | / 1 | 4 | 2 / 2 |
| Tibb, stomatologiya və səhiyyə | 22 | 13 / 9 | 4 | 2 / 2 | 18 | 11 / 7 | | | | | | | | | 22 | 13 / 9 | 4 | 2 / 2 | 18 | 11 / 7 |
| Cəmi | 34 | 23 / 11 | 6 | 3 / 3 | 28 | 20 / 8 | 15 | 12 / 3 | 4 | 2 / 2 | 11 | 10 / 1 | 3 | 2 / 1 | 52 | 37 / 15 | 10 | 5 / 5 | 42 | 32 / 10 |

**Qeyd 1:** *Universitədə mövcud olan Hüquq və Təhsil fakültələrində əcnəbi məzun yoxdur.*

**Qeyd 2:** *Cədvəldə, hər bir bölmədə məzunların ümumi sayını göstərən rəqəmin qarşısındakı 2 mərtəbəli rəqəmlər, uyğun olaraq, oğlan və qız məzunların sayını göstərir.*

**Qeyd 3:** *Təsnifatda, tibb ixtisası üzrə məzunların diplomları bakalavr diplomu kimi qəbul edilmişdir.*

**Qeyd 4:** *52 məzundan 10-u universitəni fəxri diplomla bitirmişdir. Onlardan 6 nəfər bakalavr, 4 nəfər isə magistr məzunlardır. Məzunlar arasında yüksək fəxri və ən yüksək fəxri diplom almış məzun yoxdur.*

**Qeyd 5:** *Məzunların ölkələr üzrə təsnifatı aşağıdakı kimidir:*

*Türkiyə -1 (bakalavr), Pakistan – 2 (hər ikisi bakalavr), İran – 17 (bakalavr-7, magistr – 8, Ph.D-2), İraq -2 (bakalavr -1, magistr -1), Hindistan -23 (bakalavr -22, magistr -1), Nigeriya -3 (bakalavr -1, magistr -2), Liviya -2 ( magistr-1, Ph.D-1). Yəmən -1 (magistr), Misir -1 (magistr).*

**Qeyd 6:** *Əcnəbi tələbə-məzun dedikdə, qəbul prosesində əcnəbi vətəndaş olaraq qəbul edilmiş tələbə-məzun nəzərdə tutulur. Başqa sözlə, TQDK-nın keçirdiyi test imtahanlarında iştirak edərək qəbul olunmuş gürcüstanlı və bəzi MDB ölkələrindən olan tələbə-məzunlar əcnəbi olaraq göstərilməmişdir.*

**İsaxan İSAXANLI,**
*Qəbul və tələbə şöbəsinin müdiri*
**Lamiyə NAMAZOVA,**
*Qəbul və tələbə şöbəsinin laborantı*